# Görən gözlər Bayburt deyincə




"Bir saz havasına köklənmiş qəlbim/ Çağırdıqca yoxuş-yoxuş gedəcəyəm" istəyilə süslənib, "Gözəlliklər Bəy Beyrəyin yavuqlusu/ İgidlər sahibiydi hər dərdin duyğusayarlığı ilə bətlənib-bələnib görkəmli türk şairi Yəhya Akanginin "İyul dağlarına bir yağış göndər" adlı kitabına daxil edilən şeirlər.

"Elm və təhsil" nəşriyyatında yaxın günlərdə çap edilən kitabın tərtibçisi şair Akif Əhmədgil, maliyyə yardımçısı Mahmud Kaşğarlı fondudur.

Xalq yazıçısı Anar topluya "Bayburtlu Yəhya bəy" adlı əhatəli ön söz yazıb. Qeyd edir ki, "Doğu Anadolunun başqa bölgələri kimi bayburtluların da danışıq dili Azərbaycan türkcəsinə eynilik dərəcəyində yaxındır. Yəhya bəyin Azərbaycana sevgisinin bir səbəbi də bəlkə elə budur..."

Bu sevginin sadə, səmimi ifadəsi kitaba daxil edilən şeirlərdə sıx-sıx ifadə olunub.

"Bayburt", "Bəziləri var", "Gedir", "Ümidsiz salam", "Qar yağmalı dünyamıza", "Bağsız və gülsüz", "Şəhidlər xiyabanı", "Bu gün olmasa da, yarın" adlı şeirləri Azərbaycan türkcəsinə Xalq yazıçısı Anar uyğunlaşdırıb.

Digər şeirlərin uyğunlaşdırılması şair Akif Əhmədgilə məxsusdur.

*Sərvaz*